# BANK "BTB" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 2000 (iki min) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazların

# EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə edir.

**Bakı - 2019**

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

**Biz, aşağıda imza edənlər,**

**1.** Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

**2.** Bank "BTB" ASC-nin hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 2000 (iki min) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazların Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**Bank "BTB" ASC-nin İdarə Heyətinin Sədri:**

Rzayev Emil Sabir oğlu ____________________

**Bank "BTB" ASC-nin Maliyyə departamentinin direktoru - Baş mühasib:**

Pasternak Yuliya Oleqovna____________________

## MÜNDƏRİCAT


Bəyanat........................................................................................................................2
Xülasə.......................................................................................................................,......4
Xəbərdarlıq..................................................................................................................4
Emitent haqqında məlumat...........................................................................................4
Qiymətli kağızlar haqqında məlumat..............................................................................11
Risk faktorları..............................................................................................................13
Təklif..........................................................................................................................13
İstiqrazların emitenti barədə məlumat.........................................................,.........17
Emitentin auditorları barədə məlumat............................................................................17
Emitent barədə məlumat...............................................................................................18
Emitentin biznesinin icmalı...........................................................................................18
Digər təşkilatlarda iştirak..............................................................................................20
Tendensiyalar haqqında məlumat....................................................................................20
Gəlir proqnozu............................................................................................................21
Emitentin idarəetmə və nəzarət orqanları.......................................................................22
Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar...............26
Emitentin maliyyə məlumatları.......................................................................................27
Müqavilələr.................................................................................................................31
İstiqrazlar barədə tələb olunan məlumat.........................................................................31
Əsas məlumat..............................................................................................................31
İstiqrazlar barədə məlumat............................................................................................33
Təklifin şərtləri............................................................................................................35
Ticarətə buraxılma onun və onun tənzimlənməsi.............................................................38
Kredit reytinqləri..........................................................................................................38

# XÜLASƏ

## Xəbərdarlıq

Bu sənəd Emissiya prospektinin giriş hissəsidir.İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir.Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya istiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## I Emitent haqqında məlumat

**1.1. Emitentin tam adı:** Bank "BTB" Açıq Səhmdar Cəmiyyəti

**1.2. Emitentin olduğu yer və qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, AZ1025, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, ev 27

**1.3. Emitentin təşkilati-hüquqi forması:** Açıq Səhmdar Cəmiyyəti

**1.4. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

- Qeyri-neft iqtisadiyyatı, əhali gəlirləri, büdcə xərcləri, pul təklifi, qeyri-neft iqtisadiyyatına kapital və kredit qoyuluşları tsiklik dalğalanmanın eniş zolağını artıq geridə qoyub və 2019-2020-ci illərin sadalanan göstəricilərin öz uzunmüddətli trendinə qayıdış (canlanma) mərhələsi olacağı proqnozlaşdırılır;
- Bank xidmətlərinin dərinləşməsi, xidmət spektorunun genişlənməsi prosesi davam edəcək;
- Sənaye parklarının, sənaye məhəlləsinin yaradılması və ayrı-ayrı sahələr üzrə dövlət proqramlarının qəbulu yeni müştəri portfelinin yaradılmasına imkan yaradacaq;
- Regionların inkişafı, ölkənin ikinci ən böyük iqtisadi potensialının cəmləşdiyi kənd təsərrüfatında iri aqrar təsərrüfatların yaradılması və dəyər zənciri mexanizminin tətbiqi istiqamətində aparılan islahatlar regionlarda Bankın satış şəbəkəsinin əyani və məsafədən xidmət imkanlarını genişləndirir;
- Devalvasiya nəticəsində yaranmış problemli istehlak kreditlərinin bir hissəsinin dövlət tərəfindən kompensasiya olunması və bankların öz səyləri nəticəsində problemli

aktivlərin xüsusi çəkisi aşağı düşəcək və banklar tədricən kreditləşməni bərpa etməyə başlayacaqlar;

- Yuxarıda qeyd olunan faktorlar bankların daha da rəqəmsallaşmasına və bankların gəlirlərinin daha çox real sektor hesabına formalaşdırılmasına sövq edəcək. Bank gəlirlərinin bu istiqamətlərdən formalaşdırılmasını və potensial risklərin qarşılanması üzrə tədbirlərini davam etdirəcək. Yalnız gözlənilməz halların yarada biləcəyi problemlər bu trendin nisbətən dəyişdirilməsinə gətirib çıxara bilər.

**1.5. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:**

"BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti Emitentin törəmə cəmiyyətidir. Emitentin qeyd olunan törəmə cəmiyyətinin nizamnamə kapitalında payı 100% təşkil edir. "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti investisiya şirkəti fəaliyyətini həyata keçirir və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq aşağıda qeyd olunmuş investisiya xidmətlərini göstərir:

- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;
- fərdi investorların portfelinin idarə edilməsi;
- investisiya məsləhətlərinin verilməsi;
- qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;
- qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;
- mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;
- marja ticarəti;
- müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;
- investorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;
- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;
- təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi;
- əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi ;
- qanunvericiliklə müəyyən edilmiş digər investisiya xidmətləri.

**1.6. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd :** Emissiya prospektinin 5.6 bəndində əksini tapır.

**1.7. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Bank "BTB" ASC-nin və onun törəmə müəssisəsinin (birlikdə "Qrup") 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş maliyyə hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlar, eləcədə də əhəmiyyətli mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından, Qrupun 31 dekabr 2018-ci il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

**1.8. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:** Ciddi dəyişiklik yoxdur.

**1.9. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

**BALANS HESABATI**

**A. AKTİVLƏR**

*min manatla*

| No. | Aktivlərin maddələri | 2019-9 ay | 2018-9 ay | 2017-9 ay |
|---|---|---|---|---|
| 1 | Nağd vəsaitlər | 15 515 | 16 068 | 16 052 |
| 2 | Müxbir hesablar | 3 076 | 27 290 | 36 786 |
| 3 | Banklar da daxil olmaqla, maliyyə institutlarındakı depozitlər | 8 673 | 4 253 | 6 415 |
| 4 | Qiymətli kağızlar | 3 915 | 3 326 | 6 134 |
| 5 | Maliyyə institutlarına verilmiş kreditlər | 22 436 | 11 256 | 7 672 |

| | | | | |
|---|---|---|---|---|
| 6 | Müştərilərə verilmiş kreditlər (xalis) | 185 887 | 169 299 | 124 153 |
| 7 | Əsas vəsaitlər və qeyri-maddi aktivlər | 66 989 | 67 149 | 49 206 |
| 8 | İnvestisiyalar | 600 | 350 | 0 |
| 9 | Digər aktivlər (məqsədli ehtiyattları çıxılmaqla) | 4 867 | 3 785 | 2 897 |
| **10** | **Cəmi aktivlər** | **311 957** | **302 776** | **249 315** |

## B. ÖHDƏLİKLƏR

| No. | Öhdəliklərin maddələri | | | |
|---|---|---|---|---|
| 11 | Müştərilərin tələbli depozitləri | 29 081 | 22 391 | 17 125 |
| 12 | Müştərilərin müddətli depozitləri | 90 468 | 88 304 | 52 188 |
| 13 | Mərkəzi Bankın tələbləri | 4 890 | 24 285 | 31 360 |
| 14 | Banklararası bazarın qısamüddətli maliyyə alətləri | 0 | 0 | 0 |
| 15 | Digər maliyyə institutlarının depozitləri | 13 327 | 9 395 | 17 089 |
| 16 | Digər maliyyə institutlarının kreditləri | 111 887 | 99 398 | 76 325 |
| 17 | Bank tərəfindən buraxılmış qiymətli kağızlar | 0 | 0 | 0 |
| 18 | Digər öhdəliklər | 2 704 | 2 415 | 16 277 |
| **19** | **Cəmi öhdəliklər** | **252 357** | **246 188** | **210 364** |

## C. KAPİTAL

| No. | Kapitalın maddələri | | | |
|---|---|---|---|---|
| 20 | Xüsusi kapital | 57 084 | 54 563 | 37 406 |
| 21 | Ümumi ehtiyatlar | 2 516 | 2 025 | 1 545 |
| **22** | **Cəmi kapital** | **59 600** | **56 588** | **38 951** |
| **23** | **Cəmi öhdəliklər və kapital** | **311 957** | **302 776** | **249 315** |

## MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABATI

*(min manatla)*

| Mənfəət və zərər maddələri | 2019-9 ay | 2018-9 ay | 2017-9 ay |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| **1. Faiz və gəlirlərin bu qəbildən olan növləri, *cəmi*** | **16 025** | **13 904** | **10 157** |
| a) müştərilərə kreditlər üzrə faizlər | 14 225 | 12 907 | 9 664 |
| c) maliyyə institutlarına kreditlər üzrə faizlər | 1 534 | 812 | 373 |
| k) digər faiz gəliri növləri | 265 | 185 | 121 |
| **2. Faizlər və onlara bağlı xərclər, *cəmi*** | **8 693** | **7 947** | **7 008** |
| a) müştərilərin depozitlər üzrə faizlər | 5 620 | 4 658 | 2 754 |
| b) AMB-nin kreditləri üzrə faizlər | 325 | 648 | 792 |
| c) digər faiz xərci növləri | 2 748 | 2 641 | 3 463 |
| **3. Xalis faiz gəliri (zərəri) (sətir 1 çıx sətir 2)** | **7 331** | **5 957** | **3 149** |
| **4. Qeyri-faiz gəlirləri, *cəmi*** | **4 608** | **4 586** | **916** |
| a) hesabların aparılması üzrə xidmətlərdən komisyon gəliri | 2 559 | 2 350 | 1 261 |
| c) digər xidmət növlərindən komisyon gəliri | 2 049 | 2 236 | -345 |
| **5. Qeyri-faiz xərcləri, *cəmi*** | **10 602** | **9 453** | **8 798** |
| a) göstərlimiş xidmətlər üzrə haqq və komissiya xərcləri | 2 300 | 2 073 | 166 |
| b) inzibati xərclər | 8 302 | 7 380 | 8 632 |
| **6. Əməliyyat mənfəəti (sətir 3 üstəgəl sətir 4 çıx sətir 5)** | **1 337** | **1 090** | **-4 733** |
| 7.Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmalar (xərclər), *cəmi* | -2 663 | -1 092 | -4 895 |
| **8. Vergilər və bank fəaliyyəti ilə bağlı gözlənilməz xərclər ödənilənədək mənfəət (zərər) (sətir 6 çıx sətir 7)** | **3 999** | **2 182** | **162** |
| **9. Gözlənilməz fəaliyyət növlərindən və əvvəlki dövr üçün uçotdakı dəyişikliklərdən gəlir (xərc), *cəmi*** | 0 | 0 | 0 |
| **10. Vergilər ödənilənədək mənfəət (zərər) (sətir 8 üstəgəl (çıx) sətir 9)** | **3 999** | **2 182** | **162** |
| **11. Mənfəətdən vergilər** | 0 | 0 | 0 |
| **12. Xalis mənfəət (zərər) (sətir 10 çıx sətir 11)** | **3 999** | **2 182** | **162** |

## KAPİTAL DƏYİŞMƏLƏRİ HESABATI

*(min manatla)*

| Kapital Dəyişmələri | 2019-9 ay | 2018-9 ay | 2017-9 ay |
|---|---|---|---|
| 1 | | | |
| 1. Adi Səhmlər | 66 450.00 | 66 450.00 | 52 000.00 |
| 2. Müddətsiz İmtiyazlı Səhmlər | 0.00 | 0.00 | 0.00 |
| 3. Geriyə alınmış adi səhmlər | 0.00 | 0.00 | 0.00 |
| 4. Geriyə alınmış müddətsiz imtiyazlı səhmlər | 0.00 | 0.00 | 0.00 |
| 5. Adi səhmlərin nominal və bazar qiymətləri arasındakı fərq | 0.00 | 0.00 | 0.00 |
| 6. Müddətsiz İmtiyazlı səhmlərin nominal və bazar qiymətləri arasındakı fərq | 0.00 | 0.00 | 0.00 |
| 7. Dividendlər | 0.00 | 0.00 | 0.00 |
| a) ödənilmiş adi səhmlər üzrə elan olunmuş dividendlər | 0.00 | 0.00 | 0.00 |
| b) ödənilmiş müddətsiz imtiyazlı səhmlər üzrə elan olunmuş dividendlər | 0.00 | 0.00 | 0.00 |

| | | | |
|---|---|---|---|
| 8. Bölüşdürülməmiş xalis mənfəət (zərər) | -9 366.00 | -11 887.22 | -14 594.48 |
| a) Əvvəlki illərin xalis mənfəəti (zərəri) | -13 365.19 | -14 069.43 | -14 756.61 |
| b) Cari ilin xalis mənfəət (zərəri) | 3 999.20 | 2 182.20 | 162.13 |
| c) Kapital ehtiyatları | 0.00 | 0.00 | 0.00 |
| 9. Ümumi ehtiyatlar | 2 516.46 | 2 024.91 | 1 544.86 |
| a) kreditlərdən və banklararası tələblər üzrə mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar | 2 327.16 | 1 895.01 | 1 504.79 |
| b) digər aktivlərdən olan mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar | 189.30 | 129.90 | 40.07 |
| c) əsas vəsaitlərin yenidən qiymətləndirilməsi | 0.00 | 0.00 | 0.00 |
| d) digər ümumi ehtiyatlar | 0.00 | 0.00 | 0.00 |
| 10. Cəmi kapital | 59 600.46 | 56 587.69 | 38 950.39 |

| CASH FLOW III RÜB | | | |
|---|---|---|---|
| | 2019-9 ay | 2018-9 ay | 2017-9 ay |
| Xalis faiz gəlirləri | 8 376 | 2 474 | 738 |
| Xalis haqq, komissiya və dilinq üzrə gəlirlər | 4 205 | 1 493 | 875 |
| İnzibati və digər xərclər | -9 615 | -2 788 | -2 550 |
| Əməliyyat aktivlərin xalis artım/azalma | -7 477 | -6 346 | -10 027 |
| Əməliyyat öhdəliklərin xalis artım/azalma | -16 924 | 1 902 | 13 843 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyati üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **-21 435** | **-3 265** | **2 879** |
| Ödənilmiş vergi | 0 | 62 | 84 |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **-21 435** | **-3 203** | **2 963** |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **-3 030** | **-1 085** | **-4 105** |
| Məzənnə fərqi üzrə xalis gəlir | 2 | 0 | 0 |
| **Maliyyə fəaliyyəti üzrə xalis artıb/azalma** | **6 426** | **0** | **0** |
| **Pul vəsaitləri və onların ekvivalentində xalis artım/azalma** | **-18 037** | **-4 289** | **-1 142** |
| Dövrün əvvəlinə pul vəsaitlərin və onların ekvivalentləri | 36 628 | 47 647 | 53 981 |
| Dövrün sonuna pul vəsaitlərin və onların ekvivalentləri | 18 591 | 43 359 | 52 839 |

**1.10. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

- Azərbaycan Respublikasının Prezidentinin 28 fevral 2019-cu il tarixli "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanına əsasən kredit portfelinin sağlamlaşdırılması;
- Banka etibarın artması fonunda depozit portfelinin artımı;
- Ümumilikdə ödənişləri gecikdirilən kredit portfelinin azalması.

**1.11. Emitentin əsas fəaliyyətlərinin təsviri:**

**Bank aşağıda göstərilmiş fəaliyyət növlərini həyata keçirir:**

- tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
- fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
- ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə veksellləri) buraxılması;
- öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə vekselllərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının), valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və satılması;
- öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
- kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);

- qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

**1.12. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:**

Bankın nizamnamə kapitalında mühüm iştirak payına (74.9872% və 19.0128%) iki fiziki şəxs malikdir. Qanunvericiliyə əsasən Səhmdarların Ümumi Yığıncağının səlahiyyətli olması üçün səsvermə hüququ olan səhmlərin azı 60 faizinin sahibi olan səhmdarların iştirak etməsi tələb olunur. Qanunvericilikdə qeyd olunan bir sıra məsələlər üzrə qərarlar yığıncaqda iştirak edən səhmdarların 75 % səs çoxluğu ilə, digər məsələlər üzrə isə yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul olunur. Bunu nəzərə alaraq, qeyd olunan paylar, Bankın ali idarəetmə orqanı olan Səhmdarların Ümumi Yığıncağının səlahiyyətli olması və qanunvericilik və Bankın nizamnaməsi ilə müəyyən edilmiş mühum məsələlər üzrə qərarların qəbul edilməsi üçün kifayətdir. Bundan əlavə olaraq, Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdar Sadiq Rza İsmayıl oğlu Emitentin Müşahidə Şurasının sədridir. Qeyd olunan səhmdar Müşahidə Şurasının vəzifə və səlahiyyətləri çərçivəsində Emitentin fəaliyyətinə birbaşa nəzarəti həyata keçirir.

## 2. Qiymətli kağızlar haqqında məlumat.

2.1. **İstiqrazların növü:** faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar;

2.2. **İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN);

2.3. **İstiqrazların təsbit olunan məhdudiyyətlər:** qanunvericiliklə müəyyən edilmiş hallardan başqa məhdudiyyətlər nəzərdə tutulmayıb;

**2.4. İstiqrazların təsbit olunmuş hüquqların təsviri:**

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

- İstiqrazların tədavül müddəti bitdikdə İstiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində İstiqrazların nominal dəyərindən illik 9%(doqquz) həcmində faiz almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

2.5. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 9 (doqquz) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdənetibarən 1(bir) təqvim ili müddətində) rüblük (hər rübün sonuncu iş günündə) olaraq nağdsız qaydada ödənilir. Bu zaman əsas kimi rübdə 90 gün götürülür.

2.6. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** təminatsızdır

2.7. **İstiqrazların geri satın alınma şərtləri:** Nəzərdə tutulmayıb

2.8. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**
İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF = (N*D*G/360)/100

Burada

TF – Bir istiqraz üzrə toplanmış faizlər;
N – Bir istiqrazın nominal dəyəri (1000 (bir min) AZN)
D – İstiqrazların illik faiz dərəcəsi ( 9 (doqquz) %)
G – İstiqrazlar üzrə faizlərin ödəniş müddəti (hər rüb (bir rübdə 90 gün olduğunu qəbul etmək şərtilə))
Göstərilmiş düstura əsasən hər bir istiqraz üzrə hər rüb ödəniləcək faizlərin məbləği 22,5 (iyirmi iki manat əlli qəpik) AZN təşkil edir.

2.9. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların kütləvi yerləşdirilməsi nəzərdə tutulduğundan istiqrazların mülkiyyətçisi yalnız onların yerləşdirilməsindən sonra müəyyən olunacaq.

2.10. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə

yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. Bununla bağlı müraciət Emissiya prospekti və buraxılış qanunvericiliyə müvafiq olaraq dövlət qeydiyyatına alındıqdan sonra ediləcək.

## 3. Risk faktorları

### 3.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:

Valyuta riski – valyuta məzənnəsinin əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
Faiz riski – faiz dərəcələrinin dəyişməsi ilə bağlı yarana biləcək itki riskidir.
İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
Əməliyyat riski – daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
Kredit riski – borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri.

**3.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** Kəskin devalvasiyanın olması və nəticədə müştərilərimizin və kontragentlərimizin öhdəliklərinin kəskin artması, ödəmə qabiliyyətinin isə kəskin zəiflənməsi. Emitentin fəaliyyəti ilə bağlı xidmət göstərdiyi müştərilərin, əməkdaşlıq etdiyi kontragentlərin digər səbəblərə görə kredit və ödəniş qabiliyyətinin itirilməsi riskləri. Emitent dövrü olaraq bu riskləri qiymətləndirmək və minimallaşdırmaq üçün lazım olan tədbirləri həyata keçirir. Maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması.

## 4. Təklif

### 4.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:

Emissiyadan əldə ediləcək vəsait Emitentin gələcək fəaliyyətinin dəstəklənməsində, o cümlədən Emitentin fəaliyyətinin mühüm növlərindən biri olan kreditləşmədə istifadə olunacaq.

**4.2. Təklifin şərtlərinin təsviri:**

**4.2.1. Yerləşdirmənin başlanma tarixi:** Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin (www.btbkapital.az) saytında investorlara açıqlanacaqdır.

**4.2.2. Yerləşdirmənin başa çatma tarixi:** Yerləşdirmə başlandığı tarixdən etibarən 7 (yeddi) iş günü ərzində başa çatdırılacaq.

**4.3. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən on iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**4.4. Təklifin dayandırılması və ya təxirə salınması halları:**"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və emitentin internet səhifəsində açıqlanır.

**4.5. İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi abunə yazılışı keçirilmədən həyata keçiriləcək.

**4.6. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri

bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, istiqrazlar sifarişlərin icrası şərtlərinə müvafiq olaraq investorlar arasında sifarişlərdə göstərilmiş istiqrazların miqdarına mütənasib miqdarda yerləşdiriləcəkdir. Hərrac zamanı pul vəsaitləri investorlar tərəfindən İnvestisiya Şirkətinin hesablaşma agentinin hesabına köçürülür. Yerləşdirilmiş istiqrazların dəyəri anderrayterin hesablaşma agenti kimi çıxış edən Bank "BTB" ASC-də saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və Mərkəzi Bank tərəfindən emissiyanın yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir.

**4.7. İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların dəyərinin ödənilməsi köçürmə yolu ilə investisiya şirkəti vasitəsilə həyata keçirilir. İstiqrazları əldə etmək istəyən investorlar istiqrazların yerləşdirilməsi barədə məlumat açıqlandığı vaxtdan etibarən öz təsdiq edilmiş sifarişlərini investisiya şirkətinə təqdim edir və almaq istədiyi istiqrazların dəyərini anderrayterin hesablaşma agenti kimi çıxış edən Bank "BTB" ASC-də klirinq hesabına köçürür. Hərrac başa çatdıqdan sonra 1 iş günü ərzində investisiya şirkəti hərrac zamanı investor üçün aldığı istiqrazlar barədə rəsmi məlumatı (hesabatı) investora təqdim edir. Müştəri tərəfindən hesab üzrə sərəncam verildiyi andan investisiya şirkəti müştərinin "depo" hesabında mövcud olan və həmin sərəncamda göstərilən qiymətli kağızlar barədə məlumat almaq hüququna malikdir.

**4.8. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**4.9.İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Hərracın keçirildiyi gün investorlara hərracın başlanması saatı elektron poçt vasitəsi ilə bildiriləcəkdir.

**4.10. İstiqrazların təklif qiyməti:** Bir istiqrazın təklif qiyməti 1000 (bir min) AZN təşkil edir.

**4.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:**
İstiqrazlar "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir. "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş İŞ-03 saylı, 12 oktyabr 2018-ci il tarixli lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

Ünvan: : Azərbaycan Respublikası, AZ1025, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, ev 27; (VÖEN: 2004868781)

**4.12. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:** Emissiyada aşağıdakı şəxslər iştirak edir və onlar arasında maraqlar toqquşması mövcud deyil:

**"Bakı Fond Birjası" QSC**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazlarının listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

**"Milli Depozit Mərkəzi" QSC**

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən Mərkəzi depozitardır .

İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

İstiqrazların saxlanması və uçotunun aparılması;

İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

**Anderrayter**

15.02.2018-ci il tarixində dövlət qeytiyyatına alınmış Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş 12 oktyabr 2018-ci il tarixli İŞ-03 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkəti olan "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti.

**4.13. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** İstiqraz alıcısı tərəfindən istiqrazların alınması ilə bağlı vergilərin ödənilməsi nəzərdə tutulmayıb. Fiziki şəxslər vergi məcəlləsinə əsasən faiz ödənişləri üzrə ödəmə mənbəyində vergidən azaddırlar. Hüquqi şəxslər isə hər faiz ödənişi tarixində faiz ödənişinin 10%-i həcmində ödəmə mənbəyində vergi tutulmaqla öz faizlərini alacaqlar. İstiqrazların dövriyyədə olduğu müddətdə müvafiq qanunvericilik dəyişərsə tətbiq ediləcək vergitutma prosesi emitent ve ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorlara çatdırılacaqdır.

**4.14. Istiqraz alıcısının ödəməli olduğu xərclər aşağıdakı kimidir:**
İstiqraz alıcısının ödəməli olduğu xərclər İnvestisiya Şirkəti ilə bağlanmış müqaviləyə əsasən həyata keçirilir :

-əqdin məbləğinin 0.02 % həcmində "Bakı Fond Birjası" QSC-nin komissiyası;
-investisiya şirkətinin komisyon haqqı (investisiya şirkəti ilə istiqraz alıcısı arasında bağlanmış müqaviləyə əsasən müəyyən olunur);
- "depo" hesabının açılması üçün 10 AZN
-kliring hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci.

**5. Istiqrazların emitenti barədə məlumat.**

**5.1. Emitentin auditorları barədə məlumat.**

**5.1.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:** KPMG Audit Azərbaycan MMC. Azərbaycan, Bakı AZ1010, Port Baku Cənub Qüllələri, 12-ci mərtəbə, 153 Neftçilər Prospekti.

KPMG Audit Azərbaycan MMC, Azərbaycan Respublikasının qanunvericiliyi əsasında təsis olunmuşdur. KPMG Beynəlxalq Kooperativinə (KPMG İnternational) bağlı olan müstəqil üzv təşkilatlarının KPMG şəbəkəsinin və Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvüdür.

**5.1.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə, məlumat:** Bu cür fakt mövcud deyil.

**5.2.Emitent barədə məlumat:**

**5.2.1.Emitentin tam adı, təşkilati-hüquqi forması:** Bank "BTB" Açıq Səhmdar Cəmiyyəti

**5.2.2.Emitentin dövlət qeydiyyatının rekvizitləri:** 24.02.2010-cu il tarixində dövlət qeydiyyatına alınmışdır. VÖEN: 1302164881

**5.2.3.Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin qeydiyyat tarixi:** Dəyişiklik olmayıb

**5.2.4.Emitentin olduğu yer:** Azərbaycan Respublikası, AZ1025, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, ev 27

**Emitentin poçt ünvanı:** Azərbaycan Respublikası, AZ1025, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, ev 27

**Emitentin elektron poçt ünvanı:** info@btb.az

**Emitentin internet səhifəsinin ünvanı:** www.btb.az

**Emitentin əlaqə telefonları:** (+994012) 499 79 95

**5.2.5.Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" QSC-də yerləşdiriləcəkdir. "Bakı Fond Birjası" QSC fond birjası fəaliyyətinə icazə verən müddətsiz lisenziya əsasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarəti həyata keçirir.

ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, Ə.Quliyev 11/31 "Babək Plaza", Blok B, 15 və 16-cı mərtəbələr.

**5.3.Emitentin biznesinin icmalı**

### 5.3.1. Emitentin əsas fəaliyyət istiqaməti:

**Bank aşağıda göstərilmiş fəaliyyət növlərini həyata keçirir:**

- tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
- fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
- ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə vekselləri) buraxılması;
- öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının), valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və satılması;
- öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
- kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
- qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

### 5.3.2. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:

- Tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;

- Kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
- Fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- Klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi

**5.3.3. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:**

- Cari müştəri bazarında nağdsız ödənişləri təşviq edəcək xüsusi müştəri seqmentlərinin ehtiyacına uyğun bank məhsullarının sayının və payının artırılması;
- KOS(kiçik və orta sahibkarlıq) üzrə kredit portfelinin və rəsmi əməliyyat dövriyyəsinin artırılması;
- Korporativ müştəri bazasının distant bank xidmətləri vasitəsilə artırılması

**5.3.4. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** Bank "BTB" ASC-nin fəaliyyət göstərdiyi bazar yüksək rəqabətliliyi ilə fərqlənir. Buna səbəb bazar payının böyük hissəsinin iri dövlət / kommersiya bankları tərəfindən tutulmasıdır. Digər pay isə investisiya və kommersiya bankları arasında bolüşdürülmüşdür. Azərbaycan bank sektoru məhsul çeşidlərinə görə çox inkişaf etmişdir və bu da bazar iştirakçıları arasında ciddi rəqabət yaradır.

**5.3.5. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması.**
Mövcud deyil

**5.4.Digər təşkilatlarda iştirak**

**5.4.1.Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:** "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti Emitentin törəmə cəmiyyətidir. Emitentin qeyd olunan törəmə cəmiyyətinin nizamnamə kapitalında payı 100% təşkil edir.
**5.4.2.Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat:** Emitent heç bir qrupa daxil deyil, asılılıq mövcud deyil.

**5.5. Tendensiyalar barədə məlumat**

**5.5.1.Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Belə hal mövcud deyil

**5.5.2.Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Devalvasiyadan sonra ölkə iqtisadiyyatında baş verən dəyişikliklər nəticəsində məcmu pul təklifinin artması, istehsalın genişlənməsi, məhsul və xidmət təklifinin artması, sonda işsizlik göstəricisinin azalması iqtisadiyyatın aparıcı qüvvələri olan kapital və əmək təklifinin artmasını şərtləndirir və bunun nəticəsində də bank sektoru öz strategiyasında nəzərdə tutduğu kimi planlaşdırılan mənfəətliliyin qorunmasını təmin etməkdə müsbət şərait əldə etmiş olur. Bu makroiqtisadi tsikl bank nəzarəti strukturlarının riskli sahələrə fokuslanmağını zəruriləşdirir və Emitent bu sahədə zamanın tələbinə uyğunlaşdırmaq üçün daima təkmilləşdirmə işləri aparır. Kredit, likvidlik və bazar risklərinin idarə edilməsi məqsədi ilə tətbiq edilən mexanizmlərin köməyi ilə Emitent öz tələb və öhdəliklərini effektiv idarə etmək iqtidarındadır. Baş verən bütün makroiqtisadi qeyri-müəyyənlikləri nəzərə alaraq, Emitent gələcək hadisələrdən qorunmaq və ziyansız çıxmaq məqsədilə erkən xəbərdaredici siqnalların nəticəsində daim daxili planlaşdırma işləri aparır.

**5.6. Gəlir proqnozu**

**5.6.1. Emitent öz mülahizəsinə əsasən gəlir proqnozu barədə məlumatı emissiya prospektinə əlavə edir. Gəlir proqnozu keçmiş maliyyə məlumatları ilə müqayisə edilə bilən əsasda hazırlanmalıdır:**

| **Gəlir proqnozu** | 2020 | 2021 |
|---|---|---|
| Vergiyə qədər mənfəət | 6 790.5 min AZN | 3 928 min AZN |
| **Əvvəlki dövrün məlumatları** | 2018 | 2019 |
| Vergiyə qədər mənfəət | 703.9 min AZN | 7 522.6 min AZN |

**Qeyd.** 2020-ci ilə aid göstəricilər Bankın təsdiqlənmiş büdcəsindən, 2021-ci ilə aid göstəricilər isə Bankın strateji planından götürülmüşdür. Real göstəriciləri nəzərə alaraq strateji planın yenidən baxılması gözlənilir.

**5.6.2. Emitent tərəfindən müəyyən edilən və proqnozun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat. Hesabatda emitentin idarə heyətinin təsir edə biləcəyi**

**və həmçinin idarə heyətinin təsirindən kənarda olan amillər və fərziyyələr arasındakı fərq aydın şəkildə göstərilməlidir:**

**Xarici faktorlar: 2020-2021-ci ilə qədər**

Manatın məzənnəsinin stabil olması;

ÜDM-in illik 1-2% artımı;

Dövlət büdcəsinin kəsiri aşağı səviyyədə olması;

**Daxili faktorlar:**

Emitentin kredit portfelinin artımı (illik 10%)

Emitent tərəfindən yaradılmış ehtiyatların azalması (illik 3 %)

**Hədəf İndikatorları**

Qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının hazırkı 2,627 faizlik göstəricidən 2025-ci ilə qədər 4 faizə çatdırılması

Ticari mal və xidmətlər sektorunda, məsələn istehsal və ya turizm sektorlarında 2025-ci ilə qədər 150 min əlavə iş yerinin yaradılması.

**5.6.3. Gəlir proqnozunun emitentin uçot siyasətinə uyğunluğu haqqında müstəqil auditorun hesabatı gəlir proqnozuna əlavə edilməlidir.** 2019-cu il üzrə müstəqil auditorun hesabatında emitentin gəlir proqnozu onun uçot siyasətinə uyğun olması haqqında məlumat veriləcək.

**5.6.4. Prospektə əvvəl dərc olunmuş gəlir proqnozu daxil edildikdə, həmin proqnozun prospektin tərtib olunması tarixinə etibarlılığı barədə məlumat.** Dərc olunmayıb

**5.7. Emitentin idarəetmə və nəzarət orqanları**

**5.7.1.Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə məlumatlar ( adı, soyadı, atasının adı və funksiyaları).**

**5.7.1.1. Emitentin ali idarəetmə orqanı Emitentin Səhmdarlarının ümumi yığıncağıdır.**

**Emitentin nizamnamə kapitalında paylar aşağıda göstərilmiş 3 fiziki şəxs olan səhmdarlara məxsusdur:**

Mehdiyeva Nigar İsmayıl qızı
Sadiq Rza İsmayıl oğlu
Mahmudova Tükazban Ağa qızı

**Səhmdarların ümumi yığıncağı aşağıda qeyd olunan səlahiyyətlərə malikdir:**

- Bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişikliklər etmək;
- Bankın İdarə Heyətinin üzvlərini təyin və azad etmək;
- Bankın Müşahidə Şurasının üzvlərini təyin və azad etmək, Müşahidə Şurasının əsasnaməsini təsdiq etmək, Bankın inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyənləşdirmək;
- Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, Bankın inzibatçılarının Bank adından və bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;
- Bank inzibatçılarının kommersiya maraqlarının açıqlanması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;
- Bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, başqa bankın satın alınması barədə qərarlar qəbul etmək;
- Nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, Bank səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə Bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
- Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit komitəsi tərəfindən tövsiyyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul etmək;
- Bankın satılması, yenidən təşkili, ləğvi barədə qərar qəbul etmək;
- Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri Bankın aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdikdə, həmin əqdin Bank tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi ilə bağlanmasına dair qərar qəbul etmək.
- Azərbaycan Respublikası qanunvericiliyi və Emitentin Nizamnamə ilə onun səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

**5.7.1.2. Müşahidə Şurası Emitentin idarə olunmasına və işinə nəzarəti həyata keçirir.**

**Emitentin Müşahidə Şurasının üzvləri aşağıda kimidir:**

Sadiq Rza İsmayıl oğlu - Müşahidə Şurasının sədri
Tağıyev Əliş Talış oğlu - Müşahidə Şurasının üzvü

Bank "BTB" ASC-nin Səhmdarlarının növbədənkənar Ümumi Yığıncağının SÜY-002-2019 saylı 02 dekabr 2019-cu il tarixli qərarı ilə Hümbətov İkram Müzəffər oğlu Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının üzvü vəzifəsinə namizəd olaraq təyin edilmişdir. Qeyd olunan namizədin təyinatının razılaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankına müvafiq sənədlər gödərilmişdir.

**Müşahidə Şurası aşağıda qeyd olunan səlahiyyətlərə malikdir:**

- Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən Bankın İdarə Heyətindən hesabat almaq;
- Səhmdarların ümumi yığıncağı və İdarə Heyəti üçün tövsiyyələr vermək;
- Bankın reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişikliklər etmək;
- Bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə Bankın ümumi maliyyə, uçot, inzibatı və kadr siyasətini müəyyənləşdirmək;
- Digər hüquqi şəxslərin kapitalında Bankın iştirakı barədə qərarlar qəbul etmək;
- növbəti və tələb olunduğu hallarda növbədənkənar auditın keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;
- Bankın büdcəsini qəbul və təsdiq etmək;
- Bankın filiallarını, şöbələrini, və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;
- İdarə Heyətinin əsasnaməsini, İdarə Heyəti üzvlərinin vəzifə təlimatlarını müəyyənləşdirmək və təsdiq etmək;
- Səhmdarların ümumi yığıncağının hər bir iclasını bildirişlər göndərmək yolu ilə çağırmak və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;
- Qüvvədə olan qanunvericiliyə müvafiq olaraq, İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq, səhmdarların ümumi yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq, Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun tələblərinə cavab verən başqa şəxslərlə əvəz etmək;

- Bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu halda Bankı idarə və təmsil etmək;
- Bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və tətbiq etmək;
- Bankın kapital ehtiyatlarının yaradılması haqqında qərar qəbul etmək;
- Banka aidiyyəti olan şəxslərlə dəyəri Bankın aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;
- Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanılması barədə qərar qəbul etmək;
- Kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;
- Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, Müşahidə Şurasının Əsasnaməsi və Emitentin Nizamnaməsi ilə nəzərdə tutulan digər səlahiyyətləri həyata keçirmək.

**5.7.1.3.Emitentin məsul icra orqanı olan İdarə Heyətinin üzvləri və nəzarət etdiyi sahələri barədə məlumat:**

**Rzayev Emil Sabir oğlu –İdarə Heyətinin sədri**
**Nəzarət etdiyi sahələr:** Korporativ İnkişaf departamenti, Hüquq və Təşkilati İşlər departamenti, Risklərin idarə edilməsi departamenti, Filial Şəbəkəsinin İdarə edilməsi departamenti, Müştəri xidmətləri departamenti, Maliyyə Departamenti, Xəzinədarlıq departamenti, Rəqəmsal Bankçılıq departamenti və İnformasiya Texnologiyaları departamenti.

**Abbasov Rüfət Teyyub oğlu – İdarə Heyətinin sədrinin birinci müavini**
**Nəzarət etdiyi sahələr:** Satışlar departamenti, Kredit departamenti, Marketinq departamenti, Əməliyyat departamenti, İpoteka kreditləri departamenti.

**Fərhad-zadə Rövşən Eldar oğlu - İdarə Heyətinin sədr müavini**
**Nəzarət etdiyi sahələr:** İnsan Resursları departamenti, İnzibati departament, Bank Təhlükəsizliyi departamenti, Problemli Kreditlər departamenti

İdarə Heyətinin səlahiyyətlərinə Bankın cari fəaliyyətinin idarə edilməsi ilə bağlı bütün məsələlər daxil edilir. İdarə Heyətinin səlahiyyətləri Azərbaycan Respublikasının qüvvədə

olan qanunvericiliyi, İdarə Heyətinin Əsasnaməsi və Emitentin Nizamnaməsi ilə müəyyən olunur.

**5.7.1.4.Emitentin audit işini təşkil edən Audit Komitəsinin üzvləri aşağıda kimidir:**

Hümbətov İkram Müzəffər oğlu – Audit Komitəsinin sədri
Dalqılıclı Həmid Rafiq oğlu - Audit Komitəsinin üzvü
Abdullayev Rövşən Müslüm oğlu- Audit Komitəsinin üzvü

Bank "BTB" ASC-nin Səhmdarlarının növbədənkənar Ümumi Yığıncağının SÜY-002-2019 saylı 02 dekabr 2019-cu il tarixli qərarı ilə Abdullayev Rövşən Müslüm oğlu Audit Komitəsinin sədri vəzifəsinə namizəd, Sadıxov Araz Hacı Ağa oğlu isə Audit Komitəsinin üzvü vəzifəsinə namizdəd olaraq təyin olunmuşdurlar. Qeyd olunan namizədlərin təyinatlarının razılaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankına müvafiq sənədlər gödərilmişdir.

**Audit Komitəsi aşağıda qeyd olunan səlahiyyətlərə malikdir:**

- Bankın audit siyasətini və strategiyasını müəyyən etmək;
- Daxili audit planlarını təsdiq etmək və audit departamentinin fəaliyyətinə nəzarəti həyata keçirmək;
- Kənar auditin təyin edilməsi ilə əlaqədar Bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək;
- Kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyyələrinin həyata keçirilməsinə yardım etmək;
- Bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr yaratmaq;
- Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək;
- Qanunvericiliklə, Emitentin Nizamnaməsi və Audit Komitəsinin Əsasnaməsi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

**5.7.2 Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Mövcud deyil

**5.8. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar.**

**5.8.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, ünvanları və vətəndaşlığı:**

Mehdiyeva Nigar İsmayıl qızı - 74.9872% paya malikdir.
Ünvan: Bakı şəhəri, Rəşid Behbudov küçəsi ev 59, mənzil 27
Vətəndaşlığı: Azərbaycanlı

Sadiq Rza İsmayıl oğlu - 19.0128% paya malikdir.
Ünvan: Bakı şəhəri, İ.Qutqaşınlı küçəsi ev 9, mənzil 73
Vətəndaşlığı: Azərbaycanlı

**5.8.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirləri təsviri:** Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti hazırki emissiya prospektinin Xülasə hissəsində (bax səhifə 11) öz əksini tapır. Emitent qanunvericiliyin tələblərinə uyğun prosedur və qaydalara, korporativ idarəetməyə malikdir. Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3 bəndinə əsasən Bankların aidiyyəti şəxslərlə və aidiyyəti şəxs adından hərəkət edən şəxslərlə digər müştərilərdən fərqli olaraq güzəştli şərtlərlə əməliyyatların aparılması qadağandır. Eyni zamanda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası müəyyən olunub. Emitent dünyanın böyük dördlüyünə daxil olan audit şirkətləri tərəfindən audit olunur. Emitentin maliyyə hesabatlarını özündə təsbit edən illik və yarımillik hesabatları qanunvericiliyə müvafiq olaraq onun internet saytında açıqlanır. Beləliklə İstiqraz sahibləri Emitentin mənfəətinin və nizamnamə kapitalının artırılmasına və ya azalmasına , dividend ödənişlərinə nəzarət etməklə müvafiq nəzarətin sui-istifadə edilmədiyindən əmin ola bilərlər.

**5.8.3.Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil

**5.9. Emitentin maliyyə məlumatları**

**5.9.1.Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Emissiya prospektinə əlavə edilir.

**5.9.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent 24 fevral 2010-cu il tarixindən fəaliyyət göstərir.

**5.9.3.Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:**

- maliyyə vəziyyəti haqqında hesabat;

- mənfəət və zərər haqqında hesabat;
- kapitalda dəyişikliklər haqqında hesabat;
- nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
- uçot siyasətləri və izahlı qeydlər.

Emitentin Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanır.

**5.9.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emissiya Prospektinin 5.9.1 bəndində qeyd olunan hesabatlardır. Əlavə olunur. Emitent və onun törəmə cəmiyyəti tərəfindən açıqlanmalı olan maliyyə məlumatları hər il üzrə ayrı-ayrılıqda müvafiq olaraq Emitentin və törəmə cəmiyyətinin saytlarında açıqlanır.

**5.9.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Əlavə olunur. Yarımillik hesabat audit olunmur.

**5.9.6.Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir;**

| **BALANS HESABATI** | | | |
|---|---|---|---|
| **A. AKTİVLƏR** | | | |
| | | | *min manatla* |
| **No.** | **Aktivlərin maddələri** | **2019-9 ay** | **2018-9 ay** |
| 1 | Nağd vəsaitlər | 15 515 | 16 068 |
| 2 | Müxbir hesablar | 3 076 | 27 290 |
| 3 | Banklar da daxil olmaqla, maliyyə institutlarındakı depozitlər | 8 673 | 4 253 |
| 4 | Qiymətli kağızlar | 3 915 | 3 326 |
| 5 | Maliyyə institutlarına verilmiş kreditlər | 22 436 | 11 256 |
| 6 | Müştərilərə verilmiş kreditlər (xalis) | 185 887 | 169 299 |
| 7 | Əsas vəsaitlər və qeyri-maddi aktivlər | 66 989 | 67 149 |
| 8 | İnvestisiyalar | 600 | 350 |

| | | | |
|---|---|---|---|
| 9 | Digər aktivlər (məqsədli ehtiyatları çıxılmaqla) | 4 867 | 3 785 |
| **10** | **Cəmi aktivlər** | **311 957** | **302 776** |

| **B. ÖHDƏLİKLƏR** | | | |
|---|---|---|---|
| **No.** | **Öhdəliklərin maddələri** | | |
| 11 | Müştərilərin tələbli depozitləri | 29 081 | 22 391 |
| 12 | Müştərilərin müddətli depozitləri | 90 468 | 88 304 |
| 13 | Mərkəzi Bankın tələbləri | 4 890 | 24 285 |
| 14 | Banklararası bazarın qısamüddətli maliyyə alətləri | 0 | 0 |
| 15 | Digər maliyyə institutlarının depozitləri | 13 327 | 9 395 |
| 16 | Digər maliyyə institutlarının kreditləri | 111 887 | 99 398 |
| 17 | Bank tərəfindən buraxılmış qiymətli kağızlar | 0 | 0 |
| 18 | Digər öhdəliklər | 2 704 | 2 415 |
| **19** | **Cəmi öhdəliklər** | **252 357** | **246 188** |

| **C. KAPİTAL** | | | |
|---|---|---|---|
| **No.** | **Kapitalın maddələri** | | |
| 20 | Xüsusi kapital | 57 084 | 54 563 |
| 21 | Ümumi ehtiyatlar | 2 516 | 2 025 |
| **22** | **Cəmi kapital** | **59 600** | **56 588** |
| **23** | **Cəmi öhdəliklər və kapital** | **311 957** | **302 776** |

## MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABATI

*(min manatla)*

| Mənfəət və zərər maddələri | 2019-9 ay | 2018-9 ay |
|---|---|---|
| **1. Faiz və gəlirlərin bu qəbildən olan növləri, *cəmi*** | **16 025** | **13 904** |
| a) müştərilərə kreditlər üzrə faizlər | 14 225 | 12 907 |
| c) maliyyə institutlarına kreditlər üzrə faizlər | 1 534 | 812 |
| k) digər faiz gəliri növləri | 265 | 185 |
| **2. Faizlər və onlara bağlı xərclər, *cəmi*** | **8 693** | **7 947** |
| a) müştərilərin depozitlər üzrə faizlər | 5 620 | 4 658 |

| | | |
|---|---|---|
| b) AMB-nin kreditləri üzrə faizlər | 325 | 648 |
| c) digər faiz xərci növləri | 2 748 | 2 641 |
| **3. Xalis faiz gəliri (zərəri) (sətir 1 çıx sətir 2)** | **7 331** | **5 957** |
| **4. Qeyri-faiz gəlirləri, *cəmi*** | **4 608** | **4 586** |
| a) hesabların aparılması üzrə xidmətlərdən komisyon gəliri | 2 559 | 2 350 |
| c) digər xidmət növlərindən komisyon gəliri | 2 049 | 2 236 |
| **5. Qeyri-faiz xərcləri, *cəmi*** | **10 602** | **9 453** |
| a) göstərlimiş xidmətlər üzrə haqq və komissiya xərcləri | 2 300 | 2 073 |
| b) inzibati xərclər | 8 302 | 7 380 |
| **6. Əməliyyat mənfəəti (sətir 3 üstəgəl sətir 4 çıx sətir 5)** | **1 337** | **1 090** |
| 7.Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmalar (xərclər), *cəmi* | -2 663 | -1 092 |
| **8. Vergilər və bank fəaliyyəti ilə bağlı gözlənilməz xərclər ödənilənədək mənfəət (zərər) (sətir 6 çıx sətir 7)** | **3 999** | **2 182** |
| **9. Gözlənilməz fəaliyyət növlərindən və əvvəlki dövr üçün uçotdakı dəyişikliklərdən gəlir (xırc), *cəmi*** | 0 | 0 |
| **10. Vergilər ödənilənədək mənfəət (zərər) (sətir 8 üstəgəl (çıx) sətir 9)** | **3 999** | **2 182** |
| **11. Mənfəətdən vergilər** | 0 | 0 |
| **12. Xalis mənfəət (zərər) (sətir 10 çıx sətir 11)** | **3 999** | **2 182** |

**KAPİTAL DƏYİŞMƏLƏRİ HESABATI**

(min manatla)

| **Kapital Dəyişmələri** | **2019-9 ay** | **2018-9 ay** |
|---|---|---|
| **1** | **6** | **6** |
| 1. Adi Səhmlər | 66 450.00 | 66 450.00 |
| 2. Müddətsiz İmtiyazlı Səhmlər | 0.00 | 0.00 |
| 3. Geriyə alınmış adi səhmlər | 0.00 | 0.00 |
| 4. Geriyə alınmış müddətsiz imtiyazlı səhmlər | 0.00 | 0.00 |
| 5. Adi səhmlərin nominal və bazar qiymətləri arasındakı fərq | 0.00 | 0.00 |
| 6. Müddətsiz İmtiyazlı səhmlərin nominal və bazar qiymətləri arasındakı fərq | 0.00 | 0.00 |
| 7. Dividendlər | 0.00 | 0.00 |
| a) ödənilmiş adi səhmlər üzrə elan olunmuş dividendlər | 0.00 | 0.00 |
| b) ödənilmiş müddətsiz imtiyazlı səhmlər üzrə elan olunmuş dividendlər | 0.00 | 0.00 |
| 8. Bölüşdürülməmiş xalis mənfəət (zərər) | -9 366.00 | -11 887.22 |
| a) Əvvəlki illərin xalis mənfəəti (zərəri) | -13 365.19 | -14 069.43 |
| b) Cari ilin xalis mənfəət (zərəri) | 3 999.20 | 2 182.20 |
| c) Kapital ehtiyatları | 0.00 | 0.00 |
| 9. Ümumi ehtiyatlar | 2 516.46 | 2 024.91 |
| a) kreditlərdən və banklararası tələblər üzrə mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar | 2 327.16 | 1 895.01 |
| b) digər aktivlərdən olan mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar | 189.30 | 129.90 |
| c) əsas vəsaitlərin yenidən qiymətləndirilməsi | 0.00 | 0.00 |
| d) digər ümumi ehtiyatlar | 0.00 | 0.00 |
| 10. Cəmi kapital | 59 600.46 | 56 587.69 |

**CASH FLOW III RÜB**

| | **2019-9** | **2018-9 ay** |
|---|---|---|

| | ay | |
|---|---|---|
| Xalis faiz gəlirləri | 8 376 | 2 474 |
| Xalis haqq, komissiya və dilinq üzrə gəlirlər | 4 205 | 1 493 |
| İnzibati və digər xərclər | -9 615 | -2 788 |
| Əməliyyat aktivlərin xalis artım/azalma | -7 477 | -6 346 |
| Əməliyyat öhdəliklərin xalis artım/azalma | -16 924 | 1 902 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **-21 435** | **-3 265** |
| Ödənilmiş vergi | 0 | 62 |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **-21 435** | **-3 203** |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **-3 030** | **-1 085** |
| Məzənnə fərqi üzrə xalis gəlir | 2 | 0 |
| **Maliyyə fəaliyyəti üzrə xalis artıb/azalma** | **6 426** | **0** |
| **Pul vəsaitləri və onların ekvivalentində xalis artım/azalma** | **-18 037** | **-4 289** |
| Dövrün əvvəlinə pul vəsaitlərin və onların ekvivalentləri | 36 628 | 47 647 |
| Dövrün sonuna pul vəsaitlərin və onların ekvivalentləri | 18 591 | 43 359 |

**5.9.7. 7 il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Emitentin son 7 il ərzində olan hüquqi proseslər əsasən ödənilməyən və problemli kredit portfeli ilə əlaqədar olmuşdur, əlavə olaraq Emitent heç bir beynəlxalq məhkəmədə iddiaçı və ya cavabdeh olaraq çıxış etməmişdir.

**5.9.8. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Maliyyə vəziyyətində ciddi dəyişiklik baş verməmişdir.

## 5.10. Müqavilələr

**Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Belə müqavilə mövcud deyil.

## 6.İstiqrazlar barədə tələb olunan məlumat.

### 6.1. Əsas məlumat.

**6.1.1.Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat.**

**Emissiyada aşağıdakı şəxslər iştirak edir və onlar arasında maraqlar toqquşması mövcud deyil:**

**"Bakı Fond Birjası" QSC**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazlarının listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.
İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

**"Milli Depozit Mərkəzi" QSC**

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən Mərkəzi depozitardır.
İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:
İstiqrazların saxlanması və uçotunun aparılması;
İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

**Anderrayter**

15.02.2018-ci il tarixində dövlət qeytiyyatına alınmış Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş 12 oktyabr 2018-ci il tarixli İŞ-03 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkəti olan "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti.

**6.1.2. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Emissiyadan əldə ediləcək vəsait Emitentin gələcək fəaliyyətinin dəstəklənməsində, o cümlədən Emitentin fəaliyyətinin mühüm növlərindən biri olan kreditləşmədə istifadə olunacaq.

**6.1.3. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Emitent əldə olunan vəsaitləri lahiyələrini maliyyələşdirmək üçün deyil, fəaliyyətini dəstəkləmək üçün istifadə edəcək.

**6.1.4. Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaq.

**6.2.İstiqrazlar barədə məlumat.**

**6.2.1.Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik**: Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar".

**6.2.2.İstiqrazların növü:** faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar;
**6.2.3.Təklif edilən qiymətli kağızların sayı:** 2000 (iki min) ədəd
**6.2.4.Təklif edilən bir istiqrazın nominal dəyəri:** 1000 (bir min) AZN
**6.2.5.İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN);
**6.2.6.İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:** Milli Depozit Mərkəzinin ünvanı: Bakı şəhəri, AZ1025, Babək prospekti 12A, blok C, 9-cu mərtəbə

**6.2.7.Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazlara reytinq əldə edilməsi üçün heç bir reytinq agentliyinə müraciət edilməyib.

**6.2.8.İstiqrazlarla təsbit olunan hüquqlar:**

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- İstiqrazların tədavül müddəti bitdikdə İstiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində İstiqrazların nominal dəyərindən illik 9%(doqquz) həcmində faiz almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**6.2.9.İstiqrazlarla təsbit olunan hüquqların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** qanunvericiliklə müəyyən edilmiş hallardan başqa məhduduyyətlər nəzərdə tutulmayıb.

**6.2.10.İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** illik 9 (doqquz) faiz.

**6.2.11.İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazların ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1 (bir) təqvim ili təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1(bir) təqvim ili müddətində) rüblük (hər rübün sonuncu iş günündə) olaraq nağdsız qaydada ödənilir. Bu zaman əsas kimi rübdə 90 gün götürülür.

**6.2.12. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**6.2.13.Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** faiz dərəcəsi müəyyən olunub

**6.2.14.Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcək.

**6.2.15.Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazların yerləşdirilməsi üzrə Bank "BTB" ASC, istiqrazlar üzrə faizlərin və istiqrazların əsas məbləğinin ödənilməsi üzrə Azərbaycan Respublikası Milli Depozit Mərkəzi.

**6.2.16.Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Emissiya edilən istiqrazlar təminatsız formada emissiya edilir.

**6.2.17.İstiqrazların geri satın alınmasının şərtləri:** geri satın alınma nəzərdə tutulmayıb

**6.2.18.Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:
TF = (N*D*G/360)/100
Burada
TF – Bir istiqraz üzrə toplanmış faizlər;
N – Bir istiqrazın nominal dəyəri (1000 (bir min) AZN)
D – İstiqrazların illik faiz dərəcəsi ( 9 (doqquz) %)
G – İstiqrazlar üzrə faizlərin ödəniş müddəti (hər rüb (bir rübdə 90 gün olduğunu qəbul etmək şərtilə))
Göstərilmiş düstura əsasən hər bir istiqraz üzrə hər rüb ödəniləcək faizlərin məbləği 22,5 (iyirmi iki manat əlli qəpik) AZN təşkil edir.

**6.2.19.İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Növbədənkənar Ümumi Yığıncağının SÜY-002-2019 saylı 02 dekabr 2019-cu il tarixli protokolu.

**6.2.20.İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Mövcud deyil

**6.2.21. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat:** Hazırki Emissiya Prospektinin Xülasə hissəsində göstərilib (bax səhifə 17)

**İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə emitentin öhdəliyi:** İstiqrazlar üzrə faizlərin ödənilməsi üzrə hesablaşma agenti Azərbaycan Respublikası Milli Depozit Mərkəzi olduğu üçün Emitentin qeyd olunan öhdəliyi mövcud deyil.

**6.3. Təklifin şərtləri**

**6.3.1.Yerləşdirmənin başlanma tarixi:** Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin (www.btbkapital.az) saytında investorlara açıqlanacaqdır.

**6.3.2.Yerləşdirmənin başa çatma tarixi:** Yerləşdirmə başlandığı tarixdən etibarən 7 (yeddi) iş günü ərzində başa çatdırılacaq.

**6.3.3.Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən on iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

**6.3.4.Təklifin dayandırılması və ya təxirə salınması halları:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və emitentin internet səhifəsində açıqlanır.

**6.3.5.İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi abunə yazılışı keçirilmədən həyata keçiriləcək.

**6.3.6.İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazlar bir qiymətli hərrac üsulu ile BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə, istiqrazların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi, emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən Bank "BTB" ASC-də açılmış hesabına köçürülməlidir. Yerləşdirilmiş istiqrazların dəyəri anderrayterin hesablaşma agenti kimi çıxış edən Bank "BTB" ASC-də saxlanılır və həmin vəsaitlərin istifadəsinə yerləşdirmə başa çatdıqdan və Mərkəzi Bank tərəfindən emissiyanın yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir.

**6.3.7.İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:**İstiqrazların dəyərinin ödənilməsi köçürmə yolu ilə investisiya şirkəti vasitəsilə həyata keçirilir. İstiqrazları əldə etmək istəyən investorlar istiqrazların

yerləşdirilməsi barədə məlumat açıqlandığı vaxtdan etibarən öz təsdiq edilmiş sifarişlərini investisiya şirkətinə təqdim edir və almaq istədiyi istiqrazların dəyərini anderrayterin hesablaşma agenti kimi çıxış edən Bank "BTB" ASC-də kliring hesabına köçürür. Hərrac başa çatdıqdan sonra 1 iş günü ərzində investisiya şirkəti hərrac zamanı investor üçün aldığı istiqrazlar barədə rəsmi məlumatı (hesabatı) investora təqdim edir. Müştəri tərəfindən hesab üzrə sərəncam verildiyi andan investisiya şirkəti müştərinin "depo" hesabında mövcud olan və həmin sərəncamda göstərilən qiymətli kağızlar barədə məlumat almaq hüququna malikdir.

**6.3.8.Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** emissiya ediləcək istiqrazlar həm fiziki, həm hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**6.3.9.İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Hərracın keçirildiyi gün investorlara hərracın başlanması saatı elektron poçt vasitəsi ilə bildiriləcəkdir.

**6.3.10.İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** Bir istiqrazın təklif qiyməti 1000 (bir min) AZN təşkil edir.

**6.3.11.İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**
İstiqraz alıcısı tərəfindən istiqrazların alınması ilə bağlı vergilərin ödənilməsi nəzərdə tutulmayıb.Fiziki şəxslər vergi məcəlləsinə əsasən faiz ödənişləri üzrə ödəmə mənbəyindən azaddırlar.Hüquqi şəxslər isə hər faiz ödənişi tarixində faiz ödənişinin 10% -i həcmində ödəmə mənbəyindən vergi tutmaqla öz faizlərini alacaqlar.İstiqrazların dövriyyədə olduğu müddətdə müvafiq qanunvericilik dəyişərsə tətbiq ediləcək vergitutma prosesi emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorlara ötürüləcəkdir.
İstiqraz alıcısının ödəməli olduğu xərclər İnvestisiya Şirkəti ilə bağlanmış müqaviləyə əsasən həyata keçirilir :

-əqdin məbləğinin 0.02 % həcmində "Bakı Fond Birjası" QSC-nin komissiyası;
-investisiya şirkətinin komisyon haqqı ( investisiya şirkəti ilə istiqraz alıcısı arasında bağlanmış müqaviləyə əsasən müəyyən olunur);
- "depo" hesabının açılması üçün 10 AZN
-kliring hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci.

**6.3.12.İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı) :**

İstiqrazlar "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir. "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş İŞ-03 saylı, 12 oktyabr 2018-ci il tarixli lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

Ünvan: : Azərbaycan Respublikası, AZ1025, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, ev 27
VÖEN: 2004868781
İstiqrazların yerləşdirilməsi müqabilində "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinə ödəniləcək xidmət haqqı, İnvestisiya Şirkəti ilə Emitent arasında bağlanacaq anderrayter müqaviləsinə əsasən müəyyən olunur

**6.3.13.Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** Bank "BTB" ASC ilə "BTB Kapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti arasında anderraytinq müqaviləsi istiqrazların buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

**6.4. Ticarətə buraxılma və onun tənzimlənməsi**

**6.4.1.İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. Bununla bağlı müraciət Emissiya prospekti və istiqrazların buraxılışı qanunvericiliyə müvafiq olaraq dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

**6.4.2.Market meyker(lər) barədə məlumat:** Mövcud deyil. Emitent tərəfindən gələcəkdə istiqrazların təkrar bazarda tədavülü üçün prosesə Market meyker(lər) cəlb oluna bilər.

**6.5. Kredit reytinqləri**

**Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Mövcud deyil